Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Heydər Əliyev

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 184 (20.838)

2 oktyabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Oktyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Bilgəh qəsəbəsində müharibə və əmək əlilləri üçün pansionatın əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişlər.

Dövlətimizin başçısı pansionatın yenidənqurmadan əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva pansionatda yaradılmış şəraitlə tanış oldular.

Əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov dövlətimizin başçısına və xanımına məlumat verdi ki, 1964-cü ildən fəaliyyət göstərən pansionatda əsaslı təmir və yenidənqurmadan sonra müharibə və əmək əlillərinin rahat yaşamaları və istirahəti üçün hər cür şərait yaradılmışdır. Pansionat üçün sahəsi 10687 kvadratmetr olan 165 otaqlı yeni korpus tikilmişdir.

Bildirildi ki, təmirdən əvvəl pansionatda 160-a qədər sakin yaşayırdısa, təmirdən sonra onların sayı 300-ə çatmışdır.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva pansionatın sakinləri ilə görüşdülər, çay süfrəsi arxasında söhbət etdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Prokurorluq işçiləri peşə bayramlarını qeyd ediblər

Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaradılmasının 95 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət etmiş, Heydər Əliyev Muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda davam etdirilən yubiley tədbirində Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, bu gün prokurorluq orqanlarının yaradılmasının 95 ili tamam olur. Bu sevinci bizə müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 1-nin "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd edilməsi barədə 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla bəxş etmişdir. Qeyd edilmişdir ki, mühüm dövlət təsisatı kimi prokurorluq orqanlarının sivil və demokratik məzmunlu bir qurum kimi formalaşması yalnız ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı dahi rəhbər Heydər Əliyevin böyük dövlətçilik siyasəti, gündəlik qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur. Xüsusilə qeyd olunmalıdır ki, Heydər Əliyev siyasi dühasının bəhrəsi olan və öz inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan respublikamızda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz daha da qüdrətlənmiş, xalqımızın həyat səviyyəsi yüksəlmiş, demokratik dəyərlərin hərtərəfli bərqərar olunması istiqamətində böyük uğurlar əldə edilmiş, köklü məhkəmə-hüquq islahatları aparılmışdır.

Səbuhi Şahverdiyev Naxçıvan Muxtar Respublikasında da prokurorluq orqanlarına göstərilən diqqət və qayğıdan danışmışdır. Bildirmişdir ki, muxtar respublikada şəhər, rayon prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Ötən müddət ərzində şəhər və rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikada sosial-iqtisadi və demokratik inkişafa uyğun hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin yüksək-keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir.

Muxtar respublikada yaradılmış əmin-amanlığın, ictimai-siyasi sabitliyin nəticəsidir ki, ötən illərlə müqayisədə regionda cinayətlərin sayı dəfələrlə azalmış, Naxçıvan Muxtar Respublikası cinayətkarlığın səviyyəsi baxımından bu gün ən stabil bölgə olmaqla, demək olar ki, cinayətsiz regiona çevrilmişdir.

Vurğulanmışdır ki, bu gün peşə bayramını və 95 illik yubileyini qeyd edən prokurorluq orqanları bundan sonra da öz fəaliyyətlərini dövlət səviyyəsində göstərilən etimada layiq təşkil etmək üçün bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, səlahiyyət hədləri daxilində regionun ən qabaqcıl ölkəsinə çevrilmiş ölkəmizdə aparılan müasir məzmunlu yenidənqurma və mütərəqqi islahatların həyata keçirilməsində öz xidmətlərini göstərəcək, digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdəki inkişafın əsas təminatları kimi ictimai-siyasi sabitliyin və əmin-amanlığın, dövlətçiliyimizin və milli maraqlarımızın, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında fəaliyyətlərini davam etdirəcəklər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov, şəhər və rayon prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılmışdır.

Beynəlxalq Ahıllar Günü münasibətilə tədbirlər keçirilib

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Şahbuz rayonunda yerləşən Ahıllar evində tədbir keçirilib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, muxtar respublikamızın bütün sahələrində müşahidə olunan dinamik inkişaf və tərəqqi xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahıl vətəndaşların sosial müdafiəsinin davamlı güclənməsinə imkan yaradıb. Muxtar respublikamızda ahıllara müxtəlif sosial xidmətlər göstərilir, onların sağlamlığının qorunması, cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova qeyd edib ki, muxtar respublikamızda ahıllara dövlət qayğısı günbəgün artır, onların muxtar respublikanın sosial, ictimai və mədəni həyatında fəal iştiraklarının təmin olunması üçün hər cür şərait yaradılır. Mütəmadi olaraq tənha ahıllara evlərində baş çəkilir, onların zəruri sosial problemləri yerindəcə həll edilir.



Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova isə çıxışında vurğulayıb ki, Şahbuz rayonunda yaşayan ahılların güzəranının yaxşılaşdırılması, onların sağlam həyat tərzində yaşamalarının təmin edilməsi istiqamətində məqsədyönlü işlər görülür. Ahıllar evi sakinlərinin fəal həyat tərzi və istirahətləri üçün hərtərəfli şərait yaradılıb, həmçinin onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib, sakinlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən tədbirlər təşkil edilib. Bu tədbirlərdə 545 ahıl vətəndaşa bayram sovqatı təqdim olunub.

Göstərilən diqqət və qayğıya görə ahıllar ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Xəbərlər şöbəsi

Dünən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən seçki dairələrinin veb-kamera olan məntəqələrinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvlərinin iştirakı ilə seminar-treninq keçirilmişdir.

Mərkəzi Seçki Komissiyasında növbəti seminar-treninq

Seminarı giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov prezident seçkilərinə hazırlıq sahəsində Naxçıvan Muxtar Respublikasında aparılan işlərdən bəhs edərək bildirmişdir ki, belə tədbirlərin keçirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, seçki günü məntəqə seçki komissiyası üzvlərinin öz vəzifələrini düzgün icra etmələri və səsvermə protokollarının təlimata uyğun doldurulması səsvermənin nəticələrinin müəyyən olunması baxımından çox vacibdir.

Mərkəzi Seçki Komissiyasının sədri tədbir iştirakçılarının nəzərinə çatdırmışdır ki, Azərbaycanın seçki tarixində 2008-ci ildən başlayaraq tətbiq olunan və seçki məntəqələrindən kənarda internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu seçkilərdə də davam etdiriləcəkdir. Qeyd olunmuşdur ki, ölkəmizdəki seçki məntəqələrində əvvəlki seçkilərdə veb-kameralar quraşdırılmış məntəqələrin sayı 2 dəfə artırılaraq 500-dən 1000-ə (təxminən 20 faizə) çatdırılmışdır. Muxtar respublikanın 35 seçki məntəqəsində veb-kameralar artıq quraşdırılmışdır.

Səsvermə günü istənilən internet istifadəçisinin Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi saytına və Naxçıvan Muxtar Respublikasının baş portalının saytına daxil olmaqla səsvermənin gedişini canlı izləyə biləcəyini bildirən Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları nazirinin müavini Əli Mikayılov veb-kameraların texniki xüsusiyyətləri və istifadə qaydalarından danışmışdır. Qeyd olunmuşdur ki, kameralar səsvermə günü seçki məntəqələrinin açılması anından səsvermənin yekunlarının müəyyənləşdirilməsi və səsvermənin nəticələri haqqında protokolun doldurulmasından sonra seçki məntəqələrinin bağlanması anınadək fasiləsiz olaraq fəaliyyət göstərəcəkdir. Kameraların fəaliyyəti dövründə əldə edilən bütün videogörüntülər mərkəzləşdirilmiş qaydada yazıldığına görə veb-kameraların quraşdırılması yekunlaşdıqdan sonra kameraların hərəkət etməsi, başqa istiqamətə yönəldilməsi, onların fəaliyyətinin fasiləsizliyinin pozulması, məlumatların əldə edilməsi, ötürülməsi və saxlanılması prosesinə, habelə bu məqsədlə istifadə edilən texniki qurğulara və vasitələrə qanunsuz müdaxilə, eləcə də kameralar vasitəsilə səsvermə kabinələrinin və kabinələrin içərisinin çəkilməsi qadağandır. Bu tələblərin pozulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət yaradır.

Sonda Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının əməkdaşları məntəqə seçki komissiyası protokolunun doldurulma qaydasını slaydlarla izah etmişlər.

Tədbirdə seçki komissiyaları üzvlərini maraqlandıran suallar cavablandırılmışdır.

İclasa Məhərrəm Qasımov yekun vurmuşdur.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti

Dəmirçinin dəmir iradəli insanları var

Onlar bugünkü yaşayış tərzindən xeyli razılıq edirlər

İnkişaf kəndlərdən başlanır

Sentyabr ayının 16-da Şərur rayonunun Dəmirçi kəndində yeni sosial obyektlərin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatların regionların inkişafına, insanların rifah halının yaxşılaşdırılmasına xidmət etdiyini bildirərək demişdir: ***"Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın siyasi və iqtisadi qüdrətini getdikcə artırır. Bu gün Dəmirçi kəndində istifadəyə verilən yeni sosial obyektlər də bu siyasətin davamıdır. Çünki inkişaf kəndlərdən başlanır. Muxtar respublikamızda kəndlərin kompleks inkişafı, insanların rahatlığının təmin edilməsi diqqət mərkəzindədir".***

Həmin yaşayış məntəqəsində qurulanlara, yaradılanlara, daha dəqiq desək, kənd sakinlərinə göstərilən qayğıya onların münasibətini öyrənmək üçün bu günlərdə Dəmirçiyə üz tutduq. Kəndə gedişimiz payızın ilk günlərinə təsadüf etmişdi. Həmin gün yağan yağış havaya bir sərinlik gətirmişdi. Bununla da, bu təbiət hadisəsi yaşadığımız isti yay günlərinin bitdiyini qəlbimizdə yaratdığı ovqatla çatdırır. Bu ovqatla da rayon mərkəzinə çatırıq. Buradan Dəmirçiyə olan məsafə çox da uzaq deyil. Naxçıvan-Sədərək magistralından kəndə ayrılan və yenidən qurulan yolla Dəmirçiyə daxil oluruq. Kəndin girəcəyində bizi yeni tikililər qarşılayır. Kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi bu ərazidə yerləşir. Həmin ünvanda salınmış yaşıllıq və gülzarlıq ilk anda diqqəti çəkir. Hiss etmək çətin deyil ki, dəmirçililər həm də yaşıllıq vurğunudurlar.

Yeni təhsil ocağında

İlk olaraq məktəbə getməyi planlaşdırdığımızı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İbrahim Hənifəzadəyə bildirəndə etiraz etmir. Məktəbə gəlişimiz günorta saatlarından xeyli sonraya düşsə də, necə deyərlər, təhsil ocağı öz işindədir.

Məktəb direktorunun tədris işləri üzrə müavini Xanbaba Quliyevlə görüşüb həmsöhbət oluruq. O bildirir ki, 85 müəllimin çalışdığı və Dəmirçinin şəhid oğlu Etibar Əhmədovun adını daşıyan məktəb 1026 şagird yerlikdir. Göründüyü kimi, yeni təhsil ocağı muxtar respublikada mövcud olan ən böyük məktəblər sırasındadır. Gələcək perspektiv nəzərə alınan məktəbdə bu gün 580 şagird təhsil alır. 3 mərtəbədən ibarət olan məktəb binasında 4-ü elektron lövhəli olmaqla, 57 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları müəllim və şagirdlərin ixtiyarına verilib. Yeni tədris avadanlıqları ilə təchiz olunmuş laboratoriyalarda şagirdlərin müxtəlif təcrübələr apara bilmələri üçün lazımi şərait yaradılıb. Məktəbin kitabxanası da müasir tələblər səviyyəsində qurulub. Burada minlərlə kitab müəllim və şagirdlərin istifadəsinə verilib. Kompüter otaqlarında yerləşdirilən 57 kompüterin hər birinə xüsusi tədris proqramları yüklənərək internetə qoşulub. Bu da şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından hərtərəfli yararlanmalarına geniş imkanlar açıb.

Başa çatan tədris ilində Dəmirçi kənd tam orta məktəbinin 5 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Məktəbdə yaradılan hərbi kabinə burada gənclərin çağırışaqədərki hazırlıq dərslərinin yüksək səviyyədə tədrisinə imkan verib. Bu da belə qənaətə gəlməyə əsas verir ki, gələcəkdə adıçəkilən məktəbdən hərbi təmayüllü məktəblərə qəbul olunanların sayı daha çox olacaq.

Muxtar respublikada şagirdlərin fiziki hazırlığının yüksəldilməsinə göstərilən qayğının ifadəsini bu məktəbdə də görmək olar. Belə ki, təhsil ocağının idman zalında müxtəlif idman növləri ilə məşğul olmaq üçün lazımi şərait yaradılıb. Məktəblilər açıq idman qurğularından da istifadə etmək imkanı qazanıblar.

Dəmirçi kəndində xidmət mərkəzi

Direktor müavini bildirdi ki, ötən tədris ilini uğurla başa vurublar. Belə ki, məktəbi bitirən məzunlardan 14-ü ali məktəblərə, 3-ü isə orta ixtisas məktəblərinə qəbul olunub. Yeni məktəb binası isə qarşıdakı illərdə bu rəqəmləri daha da yüksəltməyə imkan verəcək. Sözsüz ki, müəllimlər yaradılmış şəraitdən səmərəli şəkildə istifadə edəcəklər. Buna onlarla söhbət zamanı bir daha əmin olduq. Müəllimlər bildirdilər ki, Dəmirçi məktəbi köklü təhsil ənənələrinə malikdir. Orta təhsilini burada alan 10-a yaxın dəmirçili alim bu gün muxtar respublikanın müxtəlif elm və təhsil müəssisələrində fəaliyyət göstərir.

Kənd mərkəzində müasir şərait yaradılıb

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İbrahim Hənifəzadə deyir ki, aparılan kompleks quruculuq tədbirləri çərçivəsində Dəmirçidə fəaliyyət göstərən dövlət qurumlarının əhaliyə yüksək səviyyədə xidmət göstərməsinə imkan verən kənd mərkəzinin inşası onların məsuliyyətini birə-beş qat artırıb. İki mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, kənd mədəniyyət evi və 70 yerlik zal yerləşir. Mərkəzdə yerləşən iş otaqları zəruri mebel dəstləri və avadanlıqlarla təchiz olunub.

Yeni binada yaradılmış rabitə evində 320 abonentə xidmət göstərən 512 nömrəlik ATS quraşdırılıb, poçt bölməsi fəaliyyətə başlayıb. Kənd sakinləri 8329 kitab fonduna malik olan kitabxanadan istifadə edirlər. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün də burada otaq ayrılıb.

Kənd ağsaqqalı Məmməd Yusifovun 66 yaşı var. İxtisasca aqronomdur. Hazırda təqaüddədir. Bu gün Dəmirçidə yaradılanlar onu da ürəkdən sevindirir. Çünki yaşadığı kənd müasirliyə qovuşub. Bunu muxtar respublikada nail olunan sosial-iqtisadi inkişafla, kəndlərimizdə yaşayan insanlara göstərilən qayğı ilə əlaqələndirən M.Yusifov onu da bildirdi ki, kənd sakinləri, gənclər qurulub-yaradılanları qorumalı, gələcək nəsillərə ərməğan etməlidirlər.

Kənd adamları xidmət sahələrinin fəaliyyətindən də razılıq edirlər

Həmin gün kənddə istifadəyə verilən həkim ambulatoriyasının açılışında Ali Məclisin Sədri deyib: ***"Həkim ambulatoriyasının əsas fəaliyyət istiqaməti kənddə insanların sağlamlığının təmin olunmasından və ilkin tibbi yardımın təşkilindən ibarətdir. Yaşayış məntəqələrində tibbi xidmətin təşkili, ilk növbədə, gigiyenik qaydalara əməl olunması ilə həyata keçirilməlidir. Çünki insan sağlamlığında gigiyenik qaydaların gözlənilməsi vacib şərtdir. Bununla yanaşı, tibb işçiləri əhali arasında maarifləndirmə tədbirlərinin aparılmasını diqqət mərkəzində saxlamalıdırlar".***

Bu istiqamətdə həyata keçirilən tədbirlərlə yaxından tanışlıq məqsədilə səhiyyə ocağında olduq. Müasir tələblər səviyyəsində inşa olunan bina iki mərtəbədən ibarətdir. Həkim ambulatoriyası lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin edilib. Burada kənd əhalisinin sayı nəzərə alınaraq ştatların sayı artırılıb. Haliyədə ambulatoriyada 15 tibb işçisi sakinlərə xidmət göstərir. Stomatoloq üçün kabinədə, palatada, doğuş, peyvənd, ginekoloq və manipulyasiya otaqlarında hərtərəfli şərait yaradılıb, ambulatoriyada aptek istifadəyə verilib. Burada çalışan tibb işçiləri onlara göstərilən qayğıya əməli işləri ilə cavab verməyə səy göstərirlər.

Ambulatoriyanın yaxınlığında istifadəyə verilən xidmət mərkəzində 2 bərbərxana, 2 qadın gözəllik salonu, dərzi sexi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərir. Yeni obyektdə muxtar respublikanın emal və istehsal müəssisələrinin məhsullarının satışı təşkil edilib.

* * *

Yeni obyektlərin qarşısında bir neçə yaşlı insanın gəzişdiyini görürük. İlk baxışdan onların təqaüdçü olduqları hiss edilir. Təqaüdçülərdən biri uzun illər orta məktəbdə müəllim işləmiş 83 yaşlı Cabbar Cavadovdur. Maraqlı müsahib olduğunu salamlaşan kimi duyuram. Və düşünürəm ki, bu qədim yurd yerinin tarixi, "Dəmirçi" sözünün etimologiyası barədə elə Cabbar müəllimdən soruşsam, çox şeyi öyrənə bilərəm. Qənaətimdə yanılmıram. Onu da deyim ki, müsahibim bu yaşda olsa da, hələ hafizəsi güclüdür. Deyir ki, "Naxçıvan Ensiklopediyası"nda, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərləri"ndə, filologiya elmləri doktoru Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında və başqa mənbələrdə Dəmirçinin qədim yurd yeri olması barədə zəngin materiallar var. Bildirir ki, Naxçıvan-Sədərək avtomobil yolunun 70-ci kilometrliyindəki, hündürlüyü 1244 metr olan Vəlidağdan şərqdəki təpənin üstündə, qədim karvan yolunun yaxınlığında arxeoloji abidə var. 1998-ci ildə aparılan arxeoloji tədqiqatlar nəticəsində burada üç qatdan ibarət müxtəlifölçülü sal daşlar aşkar edilib. Sonuncu qatdakı daşların üzərində qabartma üsulu ilə işlənmiş müxtəlif işarələr var. Bu işarələrə Gəmiqaya rəsmlərində rast gəlmək olar. Dəmirçi abidəsindən müxtəlif formalı keramika nümunələri də tapılıb. Kəndin qədim tarixini sübut edən daha bir arxeoloji abidə Tunc və İlk Dəmir dövrlərinə aid nekropoldur. Buradakı qəbirlərdən boz rəngli gil qablar, odadavamlı boyaqlar tapılıb.

Kəndin adının etimologiyası ilə bağlı müxtəlif versiyaları xatırladan Cabbar müəllim bildirir ki, "Dəmirçi" sözü qədim toponimdir. Bəziləri bu toponimin mənşəyini türkdilli Dəmirçilər tayfasının, bəziləri Çingiz xanın, bəziləri Şahsevən tayfalarının adı ilə bağlayırlar. Onu da deyək ki, "dəmirçi" sözünün ilkin yaranışı dəmirçilik sənəti ilə bağlı olub. Sonralar isə bu peşə həmin tayfanın əsl sənətinə çevrilib.

Müasir yaşayış məntəqəsinin təsərrüfat həyatı inkişaf etdirilir

910 hektar ərazisi olan kənddə 1550 təsərrüfat var. Bu təsərrüfatlarda 6160 sakin yaşayır.

Dəmirçi kənd tam orta məktəbi

Aqrar islahatlar zamanı Dəmirçi sakinlərinə 362 hektar pay torpağı verilib. Onlar həm də 228 hektar həyətyanı torpaq sahəsindən istifadə edirlər. Göründüyü kimi, kənd adamlarının öhdəsində xeyli torpaq sahəsi var. Onların bu sahələrdən səmərəli istifadə etməsinə hərtərəfli şərait yaradılıb. Bunun nəticəsidir ki, təkcə cari ildə 180 hektar sahədən taxıl tədarük olunub. Məhsuldarlıq orta hesabla 36-37 sentnerə çatdırılıb. Torpaq mülkiyyətçiləri Əbülfəz Məmmədov 18 hektar, Fəxrəddin Ağayev 12 hektar sahənin məhsuluna sahib olublar. Yeri gəlmişkən qeyd edək ki, kənd adamlarının torpaq sahələrinin suvarılmasına böyük qayğı göstərilib, bu yaşayış məntəqəsinə Şərur Su Nasos Stansiyasından, Arpaçay Su Anbarının sağ sahil kanalından su vurulub. Dəmirçidə mövcud olan 7 kəhrizin suyundan da istifadə olunur. Bu da məhsuldar torpaq sahələrinin hər bir qarışının əkilməsinə şərait yaradır. Cari ildə kənd adamları 10 hektar sahədə tərəvəz əkini keçirərək bol məhsul yetişdiriblər. Kənddə mövcud olan və məhsul verən 40 hektar meyvə bağının 35 hektarı son illərdə əkilib. Dəmirçidə üzümçülüyün inkişafı da diqqət mərkəzində saxlanılıb. Bu səbəbdəndir ki, hazırda kənd adamları 30 hektardan artıq üzüm bağından məhsul tədarük edirlər.

Kənd təsərrüfatı məhsulları istehsalında texnika əkinçinin "sağ əli" hesab olunur. Bu cəhətdən də Dəmirçinin torpaq mülkiyyətçiləri çətinliklərlə üzləşmirlər. Onların öhdəsində kifayət qədər müxtəlif texnikalar var. Üstəlik, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şərur bazasının texnikalarından səmərəli istifadə olunur.

Digər yaşayış məntəqələrimiz kimi, Dəmirçidə də heyvandarlıq ən gəlirli təsərrüfat sahələrindən birinə çevrilib. Bu böyük yaşayış məntəqəsində istehsal edilən heyvandarlıq məhsulları rayonda və muxtar respublikada təşkil edilən yarmarkalarda özünə çoxlu alıcı qüvvəsi toplayıb. Torpaq mülkiyyətçisi Səttar Gözəlov 25 baş iribuynuzlu heyvan saxlayır. Vəkil Həsənovun 1000 baş xırdabuynuzlu heyvanı var. Ona dövlət tərəfindən torpaq ayrılıb. Sahibkarlıq fəaliyyətini genişləndirmək üçün hərtərəfli şərait yaradılıb. V.Həsənovun 7 nəfərlik fermer təsərrüfatı ildən-ilə uğurlarını artırır.

Nikbinliklə ayrıldığımız kənd adamlarından birinin – 89 yaşlı Rəhim Lalayevin söhbətinin qısa məzmunu insanların sosial rifahı barədə dolğun təsəvvür yaradır:

– Bir ildə 4 böyük obyekt inşa olunan, kəndarası yolları qaydaya salınan, hər il 25-30 yeni fərdi ev tikilən, hər gün qapılardan 500-ə yaxın şəxsi minik avtomobili çıxan Dəmirçidə olan gün-güzəran bugünkü yaşayışdan soraq verir. Bütün bunlar kəndimizə dövlət qayğısının ifadəsidir. Kim belə qayğıdan və belə qayğı hesabına əldə edilən yaşayış tərzindən narazı ola bilər?

Muxtar MƏMMƏDOV
Əli XUDİYEV

İnsanların gələcək haqqında düşüncələri bütün dövrlərdə aktual olub. Zaman-zaman hər birimiz xəyallarımızda gözəl "gələcək qurmuş" və bu gələcəkdə yaşamağı arzu etmişik. Real yanaşsaq, maddi, mənəvi və estetik ehtiyacların təmin edildiyi həmin gələcəyə doğru uzanan yol bu gün bizdən daha mükəmməl bilik və bacarıq, cəsarət və əzmkarlıq tələb edir. Təxminən 20-22 il bundan əvvəl Azərbaycan müstəqilliyini yenidən qazanmaqla bərabər, bu müstəqilliyi itirmək qorxusu ilə üzləşmişdi. İqtisadiyyatı çökən, ordusu formalaşmamış torpaqları işğal olunan bir ölkə tarixin ağır sınaqlarına məruz qalmışdı. Ancaq insanlar gələcəyə – yəni bu günə inamla baxır, bütün çətinlikləri dəf edəcəklərinə inanırdılar. Bu yeni tarix isə heç də özözünə qazanılmadı. Dahi şəxsiyyət Heydər Əliyevin qəbul etdiyi qərarlar uzaq gələcəyə hesablanmış inkişaf strategiyasını işə saldı. Tarix üçün çox qısa zamanda həmin strategiya Azərbaycanı inkişaf etməkdə olan dövlətlər sırasına yüksəltdi. Sırada isə yeni və inkişaf etmiş gələcəyə gedən növbəti bir yol var. Bəs Naxçıvan Muxtar Respublikası bu gələcəyə doğru uzanan yolu necə addımlayır?

Gələcək özü gəlməyəcək

Dünyanın inkişaf etmiş ölkələrinin keçdikləri yolu, qazanılan nailiyyətləri təhlil etdikcə yeganə gəlinən nəticə odur ki, gələcək özü gəlməyəcək, onu biz gətirəcəyik. Təbiidir ki, inkişaf etməkdə olan ölkələr kimi, Azərbaycanın da gələcək üçün öz hədəfləri var. Bu hədəflər yaxın beş, on, və ya iyirmi il üçün deyil, yüz, iki yüz il və daha artıq dövrlər üçün nəzərdə tutulub. Bu hədəflərə çatmaq üçün dövlət birbaşa deyil, mərhələli və müəyyən illəri nəzərdə tutan proqramlarla çıxış edir. Əslində isə bu proqramlar uzun illər üçün hədəflənib. Fikrimizi müxtəlif sahələrlə bağlı qəbul edilmiş istənilən dövlət proqramı üzərində izah edə bilərik. Məsələn, hamımıza aydındır ki, bu gün muxtar respublikada 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı qəbul edilmiş Dövlət Proqramının icrası davam etdirilir. Proqramda məqsəd ondan ibarətdir ki, qeyd edilən zaman çərçivəsində muxtar respublikada meyvə bağları salınsın. Bu təmin edilərsə, regionda yaxın illər ərzində meyvə bolluğu yaradılar, bolluq yarandıqca da idxaldan asılılıq azalar, yəni mənşəyi bilinməyən məhsullar yerli bazara yol tapmaz, eyni zamanda ucuzluq yaranar, əhali sağlam təbii məhsullardan istifadə edər və nəhayət, məhsul bolluğu o qədər artar ki, ixrac üçün əməlli-başlı şərait yaranar. Hələ mən burada işsizliyin azaldılması, salınan bağların hesabına yaranan ekoloji auranı və sairi qeyd etmirəm. Deməli, bu üçillik proqram bu qədər hədəfləri birləşdirir. Ancaq məsələnin gözə çarpmayan tərəfləri də var. 2012-2015-ci illəri nəzərdə tutan bu proqram o demək deyildir ki, 2015-ci ildən sonra ağac əkə və ya meyvəçiliklə məşğul ola bilməzsən. Bu üçillik zəhmət həm də insanlara böyük təcrübə qazandırır: aqrotexniki qulluq, suvarma, böyük həcmdə məhsulun emalı, təbiətə münasibət və ən nəhayət, pul qazanmaq istəyi, yəni fərdi maraq. Bu son qeyd etdiyim nüans zəhmətkeş insanları işini daha da böyütməyə vadar edir. Düzünü söyləsək, elə dövlətin də marağındakı bu idi. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, qəbul edilmiş və ediləcək hər bir dövlət proqramında hər iki tərəfin maraqları üst-üstə düşür. Necə deyərlər, dövlət vətəndaşı, vətəndaş isə dövləti üçün çalışır.

Bu gün muxtar respublikada bütün sahələrin inkişaf etdirilməsinə yüksək səviyyədə diqqət və qayğı var. Gəlin bu sahələrə bir də gələcək hədəflərə çatmaq prizmasından yanaşaq. Həm də çox qısa olaraq.

İlk olaraq başlayaq təhsildən. Təhsil istənilən sahənin gələcək perspektivində sanki lokomotiv rolunu oynayır. Bu sahədə xeyli sayda dövlət proqramları qəbul edilsə də, ildən-ilə müsbət nəticələr əldə edilsə də, görüləcək işlər də çoxdur. Unutmaq olmaz ki, qarşıya qoyulmuş tapşırıqların həll edilməsində, sadəcə, inzibati qaydalar rol oynamır. Əgər bu gün ali məktəb tələbəsi təhsilini "başa vurduqdan" sonra "yaxşı işin" yalnız tanış vasitəsilə əldə edilməsinə böyük ümidlər bəsləyirsə, onun bu fikirlərini cəmiyyətdə kifayət qədər dəstəkləyənlər varsa, deməli, görüləcək işlərə uzun illər sərf olunacaq. Ona görə də bu sahənin inkişafına cəmiyyət özü təkan verməli, tələb olunan bilik və bacarığa malik olmayanların mühüm işlərdən kənarda qalacağı praktik cəhətdən mümkün olmalıdır.

Azərbaycanda elmin inkişafında böyük xidmətləri olan ziyalılarla bərabər, hələ də "müdafiə xəstəliyinə" tutulmuş və özünü bu "xəstəlikdən" heç cür qurtara bilməyən "alimlər" də var. "Müdafiə edilərək yazılmış" qalın kitablar isə nəinki müasir elmə, heç müəllifin özünə də lazım deyil. Müasir elmə müasir həyatın tələbləri çərçivəsində yanaşmaq lazımdır.

İqtisadi əsaslar istənilən ölkənin əsas dayaq sütunlarıdır. Bu gün muxtar respublikada sahibkarlıq mühitinin genişləndirilməsi üçün imkanlar yetərli olsa da, bazarda kəşf edilməyən xeyli sektorlar da var. Müasir biznes yalnız mağaza açmaq və ya hər hansı məhsulun istehsalı üzərində qurulmayıb. Nəzəri yox, praktik baxımdan müxtəlif biznes-ideyaların muxtar respublikada tətbiqi barədə növbəti yazılarımda məlumat verəcəyəm. Hələliksə onu deyə bilərəm ki, gələcək üçün yalnız rəqabətədavamlı məhsul istehsal edənlər və öz məhsuluna böyük dəyər verənlər muxtar respublikada iqtisadiyyatın çiçəklənməsinə töhfə verə biləcəklər.

Müasir həyatda mədəniyyətin də strateji sahə olduğunu kiməsə sübut etməyə ehtiyac yoxdur. Muxtar respublikada milli, tarixi, mədəni və mənəvi dəyərlərin qorunması yönündə atılan addımlar bu zəngin mədəniyyətin təbliği üçün geniş imkanlar açır. Ancaq düşünürəm ki, mədəniyyətimizin həm daxildə, həm də xaricdə hərtərəfli təbliğ edilməsi üçün mövcud və fərqli imkanlardan kifayət qədər yararlana bilməmişik. Bu sahədəki təbliğat yalnız qarşılıqlı görüş və tədbirlər vasitəsilə deyil, müxtəlif imkanlardan istifadə edilməklə də aparılmalıdır. Naxçıvan mədəniyyətinin tanıdılması vasitələri elə seçilməlidir ki, istənilən qarşı tərəf bu mədəniyyəti öyrənməkdə maraqlı olsun.

İnformasiya texnologiyalarının bu günümüzdə də, gələcəkdə də hansı rola malik olması hər birimizə aydındır. Bu gün muxtar respublikada bütün sahələrin informasiyalaşdırılması istiqamətində gedən işlər gələcək üçün daha aktuallıq kəsb edəcək. Bu yeniliklərin tətbiqindən bütün dünyada olduğu kimi, maksimum yararlanmağa çalışmalıyıq. Bunun üçün texnoloji biliklərə yiyələnmək kortəbii yox, sistemli xarakter daşımalıdır. Yaxın illərdə "kompüter kursunu bitirmişəm, iş tapa bilmirəm" fikrini, sadəcə, gülərək xatırlayacağıq.

Səhiyyə tarix boyu insanların ehtiyac duyduğu sahələrdən olub. Muxtar diyarımızda səhiyyə müəssisələrinin ən müasir formada qurularaq vətəndaşların istifadəsinə verilməsi dövlətin bu sahəyə göstərdiyi böyük diqqətin nəticəsidir. Ancaq etiraf etmək lazımdır ki, bu sahədə mövcud boşluqların aradan qaldırılması üçün yenə də uzun illər lazım olacaq. Səhiyyənin yüksək səviyyədə inkişaf etdirildiyi ölkələrdə bu gün alternativ tibbin gələcəyinin "Sağlam insan – sağlam təbiət" fəlsəfəsi üzərində qurulmağına cəhdlər edilirsə, ötən yazılarımın birində qeyd etdiyim kimi, sağlam həyat tərzi ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsi region üçün daha məqsədəuyğun görünür. Mövcud təbii gözəlliklər və yaradılmış hərtərəfli şərait sağlam gələcəyin qarantı olduğunu təsdiq edir.

Bəli, gələcəyə doğru uzanan yol göründüyü kimi, hamar deyil və bunu digər sahələr üçün də söyləmək olar. Həll ediləcək məsələlər çoxdur. Bunun üçünsə, ilk növbədə, təşəbbüskarlıq lazımdır. Hərdən bizə elə gəlir ki, bütün sahələrdəki çatışmazlıqları dövlət özü həll etməlidir. Bu, tamamilə yanlış fikirdir. Bəzən cəmiyyətdə elə çatışmazlıqlar olur ki, onlar üçün hər hansı bir sərəncam imzalamaq, proqram qəbul etmək mümkün olmur. Bu vəziyyətlərdə yalnız təşəbbüskar olmaqla müəyyən nəticələr əldə etmək olar. Yoxsa gələcək bizim üçün tarix və zaman dəyişikliyindən başqa bir məna kəsb etməz!

Səbuhi HƏSƏNOV

Nə yaxşı ki, sabitlik var...

Dilənən uşaqlar… Hər birimiz üçün bu anlayış yaxın olan uzaq keçmişdə qalıb. O keçmiş ki, onda Qarabağda müharibəni aparmaq üçün kimdənsə pul, kimdənsə silah istəyirdik. Gələn silahları öz məqsədləri üçün istifadə edən hərbiləşmiş siyasi qüvvələrdən xalq olaraq aman dilənirdik. Allahdan qurtarıcı diləyirdik. Onda dilənən uşaqlar da öz yerində idi. Məktəbli olduğum vaxtlar sinfimizdə bir Miriş var idi. Dost idik, uşaq yaddaşım məni aldatmırsa, o da birinci, ikinci sinifdə oxuyanda dilənməyə başlamışdı. Sonra isə dilənməyin fayda vermədiyini görüb, oğurluğa başlamışdı. İlk dəfə oğurladığı əşyaların pulunu biz yığıb vermişdik, sonrakı dəfələrdə isə gücümüz çatmamışdı… Elə Mirişi də sonuncu dəfə dilənən uşaqların içində görmüşdüm. Sonra görmədim…

* * *

Bu yaxınlarda xarici ölkələrdən birində olarkən eynilə bizim Mirişə oxşar balaca bir uşaq yaxınlaşdı mənə. Ərəbcə təkidlə nəsə istəyir, əlini cibimə uzadırdı. Sırf onun kim olduğunu, niyə diləndiyini öyrənmək üçün guya nə istədiyini başa düşmədiyimi göstərməyə çalışdım. Suriyalı Məhəmməd… O, faktiki olaraq ölkəsini qarışdıran, ölkəsinə öz maraqlarını diqtə etməyə çalışan xarici güclərin, hakimiyyət ehtirası ilə Vətəninin övladlarını xarici ölkələrdə dilənməyə belə, vadar edən daxili qüvvələrin qurbanı idi… O daha təhsil almır, o, yeməyə çörək tapmır. İndi onun üçün tanımadığı bir ölkədə tanımadığı insanlardan topladığı pullar var, hər gün diləndiyi yollar var, bir də uzaqda sabitlikdən məhrum edilmiş Vətəni…

Bəlkə də, o uşaq düşünürdü ki, indi dünyanın hər yerində qarışıqlıqdır. Hər yerdə silahlı insanlar necə gəldi hərəkət edirlər. Maşınların qarşısını kəsirlər, tabe olmayanları güllələyirlər və birdən bir anda hardansa gələn kimyəvi bomba partlayır… Axı mənim də 4-5 yaşım olanda belə fikirləşdiyim vaxtlar olmuşdu…

* * *

Naxçıvandan gedərkən həftənin ikinci günü idi. Rayonlarımızdan birinin ərazisindən keçərkən yeni tikilmiş, ən müasir tələblərə cavab verən bir kənd məktəbinin qarşısında hələ məktəbə yeni qədəm qoymuş, ölkəmizin gələcəyi olan, bu ölkənin sabahını quracaq məktəbli uşaqları görəndə köksüm fərəhlə dolmuşdu.

* * *

Nə yaxşı ki, sabitlik var. Bu sabitlik, sadəcə, təhlükəsiz həyat şəraitinin sabitliyidir, qalan heç nə sabit deyil... Gəlirlər artır, hərbi güc artır, maaşlar artır, iş yerləri artır... Əgər 1993-cü ildə bu ölkədə idarəçilik sükanı arxasına SABİTLİYİ gətirən LİDER gəlməsəydi, yenə artım olacaqdı: işğal olunan rayonlarımızın sayı artacaqdı, qaçqınlarımızın sayı artacaqdı, hərəsi bir dərədə bəy olanların sayı artacaqdı, dilənən uşaqlarımızın sayı artacaqdı... Və birdən hər şey dayanacaqdı. Axı istənilən artım və azalma məkan daxilində olur. Onda məkan olmayacaqdı, Azərbaycan olmayacaqdı... Nəyin artdığını, nəyin azaldığını hesablamaq da olmayacaqdı...

Elnur KƏLBİZADƏ

Naxçıvan Dövlət Universitetində pedaqoji təcrübəyə həsr olunmuş konfrans

Naxçıvan Dövlət Universitetində ənənəyə uyğun olaraq, 2013-2014-cü tədris ilinin birinci semestrində universitetin professor-müəllim heyətinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşlarının, təcrübəçi tələbələrin iştirakı ilə pedaqoji təcrübənin başlanğıc konfransı keçirilmişdir.

Ötən tədris ilində keçirilən pedaqoji təcrübənin gedişini əks etdirən filmin nümayişindən sonra konfransı giriş sözü ilə ali məktəbin rektoru, professor Saleh Məhərrəmov açmışdır. Qeyd olunmuşdur ki, pedaqoji təcrübənin hər bir tələbənin gələcəyin yüksək intellektli müəllimi, mütəxəssisi kimi formalaşmasındakı rolu danılmazdır. Pedaqoji təcrübə imkan verir ki, təhsil müddətində qazanılan nəzəri biliklər təcrübədə möhkəmləndirilməklə peşə vərdişlərinə çevrilsin. Təcrübə dövründə metodistlərin, müəllimlərin və tələbələrin üzərinə böyük məsuliyyət düşdüyünü də qeyd edən rektor universitetdə ixtisaslı pedaqoji kadr hazırlığı prosesində ali və orta ümumtəhsil müəssisələrinin müntəzəm əməkdaşlığına, dünya təhsil sisteminə inteqrasiyaya, nəzəri bilik və təcrübə mübadiləsinə xüsusi əhəmiyyət verildiyini vurğulamışdır.

Universitetin Tədris şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov "Pedaqoji təcrübənin təşkilinə aid müasir tələblər haqqında" mövzusunda çıxış edərək bildirmişdir ki, pedaqoji təcrübə müddətində tələbələrin muxtar respublikanın tam orta məktəblərində pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərini yaxşı mənimsəmələri üçün hər cür şərait yaradılmışdır. 2013-2014-cü tədris ilində Naxçıvan Dövlət Universitetinin 6 fakültəsinin 17 ixtisas üzrə 288 tələbəsi Naxçıvan Muxtar Respublikasının 18 tam orta məktəbində pedaqoji təcrübə keçəcək. Tələbələr Naxçıvan şəhərinin tam orta məktəbləri ilə yanaşı, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Kərimbəyli kənd tam orta məktəblərində də pedaqoji təcrübədə olacaqlar.

Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent Vahid Rzayev metodistlərin təcrübə dövründə yerinə yetirdiyi işlər haqqındakı çıxışında demişdir ki, beşhəftəlik təcrübə müddətində tələbələr təcrübəli pedaqoqların, universitetin Tədris şöbəsinin əməkdaşlarının, metodist müəllimlərin iştirakı ilə açıq dərslərdə iştirak edəcəklər.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək ölkədə və muxtar respublikada təhsilə, təhsil işçilərinə göstərilən dövlət qayğısından danışmış, sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində elm və təhsil müəssisələrinin qarşısında duran vəzifələrlə əlaqədar müşavirə keçirildiyini, Ali Məclisin Sədri tərəfindən təhsil müəssisələrinin fəaliyyətini gücləndirmək məqsədilə mühüm tövsiyə və tapşırıqlar verildiyini bildirmişdir. Vurğulanmışdır ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə yeni məktəblər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilir ki, bu da yeni nəsil pedaqoqların tədris prosesini müasir tələblərə uyğun qurmasına şərait yaradır.

Mina QASIMOVA

Naxçıvanlı elm adamları beynəlxalq simpoziumda iştirak ediblər

25-27 sentyabr 2013-cü il tarixlərində Türkiyə Cümhuriyyətinin Əhlət, Bitlis və Tatvan şəhərlərində II Beynəlxalq Əhlət-Avrasiya Mədəniyyət və Sənət Simpoziumu keçirilib. Bitlis Eren Universiteti, Bitlis Valiliyi, Bitlis Bələdiyyəsi, Bəlli Mədəni Araşdırmalar Mərkəzi və Əhlət Mədəniyyət və Təhsil Vəqfinin birgə təşkilatçılığı ilə keçirilən simpoziumda müxtəlif nüfuzlu elm və tədqiqat mərkəzlərini, universitetləri təmsil edən elm adamları iştirak ediblər. Beynəlxalq simpoziumda muxtar respublikamızdan olan elm adamlarının müxtəlif mövzularda etdikləri məruzələr maraqla qarşılanıb, geniş müzakirələrə səbəb olub.

Simpoziumda AMEA Naxçıvan Bölməsi əməkdaşlarından AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Naxçıvan və Şərqi Anadolu ərazilərində Orta Tunc dövrü mədəniyyəti", filologiya üzrə fəlsəfə doktoru Məhsəti İsmayılın "Mifo-poetik düşüncə – Şərqi Anadolu və Azərbaycanın ortaq inanc mədəniyyəti", filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun "Şərqi Anadolu və Azərbaycan şifahi xalq ədəbiyyatında uşaqların tərbiyəsi", tarix üzrə fəlsəfə doktoru Asəf Orucovun "Kültəpə və ətrafındakı inanc yerləri", elmi işçi İlhami Əliyevin "XVI-XVIII əsrlərin əvvəllərində Azərbaycanın Naxçıvan bölgəsinin ticarət əlaqələri", elmi işçi Elnur Kəlbizadənin "Azərbaycan Atabəyləri (Eldənizlər) dövründə Naxçıvan diyarı şəhərləri və qalalarının tarixi-coğrafiyası", Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru, dosent Əbülfəz Əzimlinin "Əhlət – Əhlət daşımızdır", memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qəmbərovanın "Əhlətin tarixi və memarlıq dəyəri olan məzar daşlarının bəzək naxışları" mövzularında məruzələri dinlənilib.

Beynəlxalq simpoziumun sonuncu günü iştirakçılar Əhlətin tarixi məkanları ilə tanış olublar. Qeyd edək ki, beynəlxalq simpoziumda Azərbaycanın digər universitet və elm mərkəzlərinin təmsilçiləri də iştirak ediblər.

Xəbərlər şöbəsi

Seçki marafonu

9 oktyabr Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

2013 Prezident seçkiləri - 2

Seçki Məcəlləsinin 40.1-ci maddəsinə müvafiq olaraq, seçki prosesi aşkar olmalıdır.

Hörmətli seçicilər!

Səsvermə günü ictimaiyyət tərəfindən səsvermənin gedişinin izlənməsi yolu ilə aşkarlığın geniş təmin edilməsi və seçkilərə ictimai inamın daha da artırılması məqsədilə seçki prosesində yeni texniki vasitə – veb-kamera (bundan sonra – kamera) tətbiq edilir.

Kamera səsvermə günü, səsvermə kabinəsi istisna olmaqla, seçki məntəqəsinin içərisində gedən prosesləri müşahidə etmək və əldə edilən görüntülərin birbaşa Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilməklə kütləvi şəkildə nümayiş etdirmək üçün nəzərdə tutulan müvafiq texniki qurğudur.

Kameralar Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sifarişi ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən quraşdırılır.

Kameralar Mərkəzi Seçki Komissiyasının sifarişi ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən quraşdırılır.

Məntəqə seçki komissiyaları üzvlərinin öz vəzifələrini lazımınca icra etmələri, onlar tərəfindən seçki sənədləri ilə işin aparılması, seçicilərə öz iradələrini heç bir qanunsuz təsir olmadan azad ifadə etmək üçün zəruri şəraitin yaradılması, seçicilər tərəfindən seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin sayılması, səsvermənin nəticələrinin müəyyən edilməsi və digər proseslər bu qurğu vasitəsilə müşahidə olunaraq seçki məntəqələrində seçkilərin qanunun tələbinə uyğun keçirilməsi nümayiş etdirilir.

Seçki prosesində kameraların tətbiq edilməsi heç bir halda seçkilər və referendum zamanı səsvermənin gizliliyinə xələl gətirməməli, habelə seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna etməlidir.

Kameralar tələb olunan qaydada quraşdırılaraq yerləşdirilməli, səsvermə günü fasiləsiz fəaliyyət göstərməli, məlumatlar təhlükəsiz şəkildə əldə edilməli, ötürülməli və müəyyən olunmuş müddətdə saxlanılmalıdır.

Seçki məntəqəsində stasionar qaydada, hərəkət etməyən, yalnız yönəldiyi ərazini izləmək imkanı verən kamera quraşdırılır. Kameralar seçki məntəqələrində elə yerləşdirilməlidir ki, onun vasitəsilə seçicilərə seçki bülletenlərini verən və seçki sənədləri ilə iş prosesini həyata keçirən məntəqə seçki komissiyası üzvlərinin əyləşdikləri və səslərin sayılması həyata keçirilən masa və daşınmaz seçki qutusunu izləmək mümkün olsun.

Kameralar səsvermə günü seçki məntəqələrinin açılması anından, səsvermənin yekunlarının müəyyənləşdirilməsi və səsvermənin nəticələri haqqında protokolun doldurulmasından sonra seçki məntəqələrinin bağlanması anınadək fasiləsiz olaraq fəaliyyət göstərir.

Quraşdırılma yekunlaşdıqdan sonra kameraların hərəkət etməsi, başqa istiqamətə yönəldilməsi, onların fəaliyyətinin fasiləsizliyinin pozulması, məlumatların əldə edilməsi, ötürülməsi və saxlanılması prosesinə, habelə bu məqsədlə istifadə edilən texniki qurğulara və vasitələrə qanunsuz müdaxilə, eləcə də kameralar vasitəsilə səsvermə kabinələrinin və kabinələrin içərisinin çəkilməsi qadağandır.

* * *

Bu tələblərin pozulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət yaradır.

Seçki günü seçki prosesinin şəffaflığını təmin edən vasitələrdən biri də "exit-poll"dur.

"Exit-poll" vətəndaşların seçki günü verdikləri səslərin təkrar sayılması deməkdir. "Exit-poll" səslərin sayının yoxlanılmasının bir yoludur. Bu, əsasən, seçki məntəqəsindən bir qədər aralıda qoyulan seçki qutularına təkrar səs verilməsi yolu ilə aparılır. Yəni seçki günü sorğu aparan əməkdaşlar təsadüfi üsulla seçdikləri seçicilərə məntəqələri tərk etdikləri zaman kimə səs verdikləri haqqında sual verməklə və seçicilərin qısa anketi cavablandırmaqla həyata keçirilir. "Exit-poll"da iştirak könüllü və anonimdir.

Sorğu anonim aparılır və sorğu aparanlar seçicinin cavablarını heç kimə göstərməməlidirlər. Sorğu edilən seçicilər "exit-poll" sorğu vərəqini təklikdə doldurur, cavablarının gizli qalmasına əmin olmaq üçün doldurulmuş vərəqləri "exit-poll" qutusuna atırlar.

"Exit-poll" keçirən təşkilatlar Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçməlidir.

"Exit-poll"un keçirilməsinin əsas məqsədi seçki məntəqəsinin çıxışında rəy sorğusu keçirməklə səsvermədə iştirak etmiş seçicilərdən, onların könüllü iştirakı ilə əldə olunmuş məlumatlar əsasında ictimaiyyəti səsvermənin ilkin nəticələri ilə və elektorat barəsindəki təqribi statistik məlumatlarla tanış etmək, habelə səsvermənin nəticələri haqqında operativ proqnozlar müəyyənləşdirməkdən ibarətdir.

Bu sahədə ixtisaslaşmış, müvafiq təcrübəyə malik və nüfuzlu hüquqi şəxslər "exit-poll" keçirən təşkilat kimi çıxış edə bilərlər.

Qeyri- hökumət təşkilatları və xarici hüquqi şəxslər seçkilər keçirilərkən "exit-poll" ilə əlaqədar tədbirlərdə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 2.4-cü maddəsinə, habelə Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq iştirak edə bilərlər.

Həmin təşkilatların adından "exit-poll"un keçirilməsinə cəlb edilən şəxslər, əsasən, seçki hüququ və seçki sistemi üzrə mütəxəssis, yaxud bu sahədə müəyyən təcrübəsi olan şəxslər olmalıdırlar.

"Exit-poll" keçirmək üçün akkreditasiyaya dair tələblər:

"Exit-poll" keçirmək niyyətində olan təşkilatlar səsvermə gününə azı 20 gün qalmışadək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına yazılı müraciət təqdim etməlidirlər. Müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

-təşkilatın hüquqi şəxs kimi qeydiyyatdan keçməsi barədə sənədin notariat qaydasında təsdiq olunmuş surəti;

-təşkilatın "exit-poll" keçirərkən tətbiq edəcəyi qaydalar, üsullar, resurslar ("exit-poll" keçirən şəxslərin sayı, "exit-poll" keçirilərkən istifadə üçün nəzərdə tutulmuş maddi-texniki vasitələr və sair) haqqında yazılı məlumat.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

"Araz-Naxçıvan" "Mil-Muğan"la oyundan bir xal qazandı

Birinci divizionun ilk iki turunda qələbəni bayram edən "Araz-Naxçıvan" futbol komandasının səfərdən 3 xalla qayıdacağı güman edilirdi. Çünki digər oyunlarda komandamızın inamlı çıxışı, meydanın hər yerində topa sahib ola bilməsi və rəqiblərindən üstün oyun sərgiləməsi bunu deməyə əsas verirdi. Di gəl ki, "Mil-Muğan" futbol komandası ilə görüşdə hakim səhvləri "Araz-Naxçıvan"ın "ev"ə üç xalla dönməsini, sözün əsl mənasında, əngəllədi.

Keçilməz müdafiə xətti

Əsgər Abdullayev səfər matçından qələbə ilə qayıtmaq və növbəti oyunun hazırlıqlarını böyük əhval-ruhiyyə ilə keçirmək fikrində idi. Məhz buna görə baş məşqçi ideal heyətlə meydana çıxmışdı. "Şəmkir"lə görüşdən fərqli olaraq, bu dəfə çərçivə Hüseyn Məhəmmədova həvalə olunmuşdu. Təcrübəli qapıçıya, adətən, səfər oyunlarında güvənən Ə.Abdullayev yanılmadığını bir daha göstərdi. Müdafiədə isə dəyişilməz Mikayıl Rəhimov-Ruslan Abıyev-Əlimirzə Daşzərini-Cavid Həsənov dördlüsü rəqib hücumçular üçün keçilməz sədd yaratmışdılar. Əsgər Abdullayev digər oyunlarla müqayisədə bu dəfə meydana 4-2-3-1 taktikası ilə çıxmışdı. Müdafiə xəttinin qarşısında Fərman Qəmbərov və Elgiz Kərimlini oynadan Ə.Abdullayev hücumda ötən oyunu zədəyə görə buraxan Emin İmaməliyevi sınaqdan keçirdi. E.İmaməliyevin fərqlənməsi üçün isə cinahlardan Elmin Çobanov və Bəxtiyar Soltanov müdafiə xəttini yarmağa çalışırdı.

"Araz-Naxçıvan" futbol komandası yaradıldığı gündən bəri İmişli komandası ilə qarşılaşmayıb. Odur ki, bir qədər ehtiyatlı oyun oynamağa üstünlük verən Əsgər Abdullayev, əsasən, oyunu müdafiə xəttinin üzərində qurmuşdu. "Mil-Muğan" komandasına gəlincə, Mətləb Məmmədovun ilk dəfə məşqçi kimi özünü sınadığı İmişli təmsilçisi ilk iki oyunda cəmi bir xal qazanmışdır. Səfərdə "Şəmkir"lə heç-heçə edən Aran klubu ötən tur hesabda irəli keçsə də, məğlubiyyətdən yaxa qurtara bilməmişdi. Daha çox yarımmüdafiə xəttində oynamağa üstünlük verən İmişli təmsilçisinin "ev" oyununda "Araz-Naxçıvan" qarşısında bir qədər hücumameyilli oyun sərgiləyəcəyi öncədən bəlli idi. Mətləb Məmmədov da oyundan öncə açıqlamasında Heydər Əliyev adına Stadionda keçiriləcək bütün matçlara yalnız qələbə qazanmaq üçün çıxacaqlarını bildirmişdi.

"Araz-Naxçıvan" iki rəqibə qarşı: "Mil-Muğan" və hakim

Oyundan öncə hakimlər briqadasına Anar Niyazovun rəhərlik edəcəyi bilinəndə "Araz-Naxçıvan"ın işinin çətin olacağı aydın idi. Demək olar ki, hər çempionatda onun haqqında hakimlər komitəsinə, Peşəkar Futbol Liqasına şikayətlər daxil olur. Ancaq bir müddət hakimlikdən uzaqlaşdırılan fit sahibi sonradan meydanlarda yenidən peyda oldu.

Bu ifadələri işlətməyimizin səbəbi oyun ərzində Anar Niyazovun iki dəfə penalti nöqtəsini göstərməməsidir. Oyuna sürətli başlayan "Araz-Naxçıvan" ilk dəqiqələrdən hesabı açmağa çox yaxın idi. Emin İmaməliyev əlinə düşən fürsətdən yararlana bilmədi. Belə ki, künc zərbəsi ilə edilən ötürmədə iki futbolçumuz topun üzərindən atladı. Boş qalan Eminin zərbəsi isə qapı dirəyinə tuş gəldi. Bundan sonra sol cinahdan Elmin Çobanovun uzun reydi və ötürməsindən sonra topa heç bir futbolçumuz çata bilmədi. İlk hissədə, demək olar ki, bütün üstünlüyü ələ keçirən komandamız rəqibinə künc zərbələrində daha çox təhlükəli anlar yaşatdı. Edilən asmalarda Mikayıl Rəhimov və Ruslan Abıyevin baş zərbələrində bir qədər dəqiqlik çatmadı. Oyunda hay-küyə səbəb olan epizod isə cərimə meydançasında yaşandı. Belə ki, cinahdan edilən asmadan sonra top "Mil-Muğan" komandasının futbolçusunun əlinə dəydi. Açıq şəkildə qapıya gedən topu əllə "ram" edən müdafiəçinin bu hərəkəti hakimin gözündən "yayındı". Etirazlara baxmayaraq, Anar Niyazov 11 metrlik məsafədəki ağ nöqtəni göstərmədi.

İkinci hissəyə də qələbə əzmi ilə çıxan "Araz-Naxçıvan" indi meydanda bir yox, iki "komanda" ilə mübarizə aparmaq məcburiyyətində idi. Hakimlə də mübarizə aparan komandamız bir neçə epizodda hesabı dəyişə bilərdi. Xüsusilə Elgün Abbaslının cərimə zərbələri rəqib qapısı önündə təhlükəli anlar yaşatdı. Tez-tez "Mil-Muğan" komandasının qapıçısını narahat edən qırmızı-ağlar daha çox cinah hücumlarında qol epizodları əldə edirdilər.

İkinci hissənin ən çox yaddaqalan anı isə yenə hakimin penalti təyin etməməsi oldu. Bu dəfə də İmişli təmsilçisinin cərimə meydançasında top rəqib futbolçunun əlinə dəydi. Maraqlısı odur ki, müdafiəçinin əlinə dəyən top sonradan digər "Mil-Muğan" futbolçusunun da əlinə tuş gəldi. Anar Niyazovun fiti yenə də susdu. Komandaların səylərinə baxmayaraq, tablodakı sıfırlar dəyişməz olaraq qaldı və "Araz-Naxçıvan" səfər matçından bir xalla "ev"ə qayıtdı. Əldə edilən heç-heçədən sonra qırmızı-ağlar rəqiblərinin də xal itirməsindən sonra turnir cədvəlində ikinci pilləyə yüksəldilər. 3 oyundan maksimum xal toplayan "Qaradağ-Lökbatan" komandamızdan yalnız 2 xal irəlidədir.

Qeyd edək ki, "Araz-Naxçıvan" komandası növbəti oyununu da səfərdə keçirəcək. Belə ki, oktyabrın 6-da komandamız Qazaxda yerli "Göyəzən"in qonağı olacaq.

Ceyhun MƏMMƏDOV

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun (1928-2008) "Gün var, əsrə bərabər" romanı əsasında hazırlanan "Manqurt" tamaşasının məşqlərinə başlanılıb. Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovdur.

Yeni tamaşanın məşqlərinə başlanılıb

Böyük yazıçının türk, altay, qırğız əfsanələrindən bəhrələnərək ədəbiyyata gətirdiyi bu mövzu öz ideya-bədii və fəlsəfi düşüncə mükəmməlliyi ilə dünya xalqlarının diqqətini cəlb edib. Öz tarixini, milli dəyərlərini, soykökünü unudub şüursuz köləyə çevrilən birini yazıçı "manqurt" adlandırır. Bu ifadə bir çox türk dillərində vətəndaşlıq hüququ qazanaraq eyni məna ilə işlənməkdədir. "Manqurt əfsanəsi" bir sıra dərin mətləbləri ədəbiyyata gətirməkdə bədii üsul kimi sənətkarlıqla seçilib.

Tamaşada Azərbaycan Respublikasının xalq artisti Həsən Ağasoy (Yedigey), Azərbaycan Respublikasının əməkdar artistləri Bəhruz Haqverdiyev (Qulubəy), Xəlil Hüseynov (müstəntiq Tamşıqbəyov), Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Günay Qurbanova (Nayman – Ana), aktyor Zakir Fətəliyev (Ədilbəy), aktrisalar Nazlı Hüseynquliyeva (Ukubala), Nurbəniz Niftəliyeva (Ayzada) və başqaları rol almışlar.

Əli RZAYEV

ŞƏRQqapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 886